**Yaşıl dünya naminə həmrəy olaq!**



# COP-a ümid böyükdür

**Ötən gün Birləşmiş Millətlər Təşkilatının ölkəmizdəki nümayəndəliyi 2024-cü ilin noyabrında Azərbaycanın ev sahibliyi edəcəyi İqlim Dəyişikliyi Konfransına (COP29) həsr olunmuş "29 İqlim Söhbəti: COP29-a gedən yol" silsilə strateji tədbirlərə başlayıb.**

*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var. Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

**COP29**

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası**

"PAŞA Holdinq" və "Trendyol Azərbaycan" ilə birgə təşkil olunan üçüncü tədbir "29 İqlim Söhbəti: COP29-a gedən yol" silsiləsinin 19-cusudur. COP29 Sədrliyi tərəfindən dəstəklənən bu tədbir konfransla bağlı müzakirələrə medianın cəlb edilməsinə yönəlib. Tədbir COP29-un icmalını təqdim etmək və bu qlobal konfrans zamanı medianın kritik rolunu və məsuliyyətini vurğulamaq üçün hazırlanmış sessiyaları təqdim edir.

İlk olaraq UNFCCC (Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri haqqında Çərçivə Konvensiyası) kommunikasiyalar şöbəsinin rəhbəri Aleksandr Sayer çıxışında qeyd edib ki, Paris iqlim də-



yişiklikləri müqaviləsinin strateji məqsədi XXI əsrin sonlarına doğru qlobal orta temperaturun yüksəlməsini 1,5 dərəcə Selsi və ya ən azından 2 dərəcə Selsidən aşağı səviyyədə saxlamaqdır. Hətta temperatur artımı 1,5 dərəcə səviyyəsində saxlansa belə, əsrin sonuna doğru Arktikada buzlaqların 7 faizi əriyəcək. 2 faizlik artım buzlaqların 16 faizinin əriməsinə səbəb olacaq. Lakin beynəlxalq birliyin tədbirləri səmərəsiz olsa, temperatur 3 dərəcə artdığı halda buzlaqların 63 faizi əriyəcək, bu da qlobal təbii fəlakətlərə gətirib çıxaracaq.

Onun sözlərinə görə, iqlim dəyişmələrinə qarşı mübarizə daha çox investisiya tələb edir və COP29 Bakı görüşü bu tədbirlərə ayrılan maliyyə vəsaitinin artırılmasının müzakirəsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

2009-cu ildə Kopenhagen iqlim konfransında istixana qazı tullantılarının azaldılması tədbirlərinə hər il təxminən 100 mlrd. ABŞ dolları ayrılması qərara alınmışdısa, indi bu, kifayət etmir. Bu barədə COP29 üzrə Azərbaycan nümayəndəsi, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bildirib. Bakıda keçiriləcək COP konfransından əsas gözlənti bu yardımın yeni yuxarı həddinin müəyyən edilməsidir.

Daha sonra panel müzakirələri ilə davam edən tədbir Con Sprinqin moderatorluğu ilə keçirilib. Müzakirələrdə COP29 üzrə Baş Danışıqçı Yalçın Rəfiyev, COP29 Azərbaycan Əməliyyat Komitəsinin sədri və COP29 üzrə Baş Əməliyyat direktoru Nərmin Carçalova və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyevanın iştirakı ilə COP29-un perspektivlərindən söz açılıb. Yalçın Rəfiyev "29 İqlim Söhbəti: COP29-a gedən yol": "COP29 üçün effektiv kommunikasiya strategiyaları" media seminarında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində 60 sənədin qəbul olunmasının nəzərdə tutulduğunu bildirib və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının proqramını açıqlayıb:

"Noyabrın 11-də Bakıda COP29-un açılış mərasimi baş tutacaq. Noyabrın 12-13-də hökumət rəsmilərinin sammiti keçiriləcək. Noyabrın 14-dən 22-dək artıq tematik günlər olacaq. Bu günlərdə mövzular kənd təsərrüfatı, ərzaq və digər sahələrlə bağlı olacaq. Bununla yanaşı, rəsmi və qeyri-rəsmi platformalar yaradılacaq. Dövlətlərin bu məsələdə konstruktiv yanaşması bizi sevindirir. Bu yaxınlarda COP29-un gündəliyində dayanan əsas məsələlərin müzakirəsi məqsədilə Şamaxıda nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində qeyri-formal məsləhətləşmələr keçirildi. Belə tədbirlər COP29-dək davamlı olaraq təşkil olunacaq. Hazırda dövlətlər arasında bir-birinə doğru addım atmaq meyilləri müşahidə edilir. Ancaq nəzərə alınmalıdır ki, bu il dünyada seçkilər ilidir. Dünyada 4 milyarddan çox insan səsvermədə iştirak edəcək. 60-dan çox dövlətdə seçkilər keçirilir. Bu isə təbii ki, siyasi konyekturanı dəyişə bilər".

COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova isə konfransın qarşısında konkret hədəflər qoyulduğunu söyləyərək qeyd edib ki, həmin hədəflərə çatmaq üçün COP29 Əməliyyat Şirkətinə peşəkar kadrlar cəlb olunub: "COP29-un keçiriləcəyi məkan "mavi zona" adlanır. Oradakı yerlər "A, B, C, D, E" zonalarına bölünüb. Media əməliyyatları "D" zonasında həyata keçiriləcək. Bir də "V.I.P" ərazi var ki, bura müxtəlif ölkələrin dövlət və hökumət başçıları üçün nəzərdə tutulub. COP29-a ev sahibliyi Azərbaycan üçün geniş mənfəət vəd edir. Mən bu mənfəəti, ilk növbədə, onun qazandıracağı insan kapitalında görürəm. Bunu da nəzərə almaq lazımdır ki, bu regionda ilk iqlim konfransı məhz Azərbaycanda keçiriləcək".

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andeeva isə COP29-un keçirilməsinin böyük məsuliyyət olduğunu vurğulayıb:

"Qeyd etməliyəm ki, 35 qlobal institut iqlim dəyişmələri ilə mübarizə məqsədlərini müəyyənləşdirmək, icrasına nəzarət etmək üçün bir araya gəlib. Mən bu konfransın təşkilində iştirak edən hər kəsə təşəkkür edirəm. Xüsusilə, qeyd etmək istəyirəm ki, BMT iqlim dəyişikliyinin qarşısını almağa yönələn bütün təşəbbüsləri dəstəkləyir. Biz, həmçinin təmsil etdiyim qurumla Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi və gücləndirilməsində maraqlıyıq".

Panel müzakirələrin ardınca, COP29-un əməliyyatların miqyası, ölkəyə gələn qonaqlar və siyasi baxımdan əhəmiyyəti böyükdür. Bunu COP29-un iqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai deyib: "Burada təkcə ətraf mühitin gələcəyi deyil, iqtisadiyyatın da gələcəyi müzakirə mövzusudur. COP29-da ölkələr növbəti maliyyə hədəfi barədə qərar qəbul etməlidirlər. Bu baxımdan bizim COP-da ciddi, qlobal qərarlar qəbul ediləcək".

COP29 Azərbaycan Əməliyyat Şirkətinin əməkdaşı Ayan Nəcəf jurnalistlərə açıqlamasında Azərbaycanda COP29-a qatılmaq üçün elektron viza müraciəti edən ölkələrin sayının 100-ü keçdiyini bildirdi.

Yerli media nümayəndələri üçün keçirilən "COP29 üçün effektiv kommunikasiya strategiyaları" mövzusunda media seminarında "Yaşıl və Mavi zonalarda media xidmətləri və əraziləri/qurğuları haqqında" məlumatlandırma zamanı yerli media nümayəndələrinin akkreditasiya haqqında sənədi noyabrın 1-də əldə edə biləcəklər: "COP29 üçün akkreditasiyadan keçmiş heyət üzvləri konfransın keçiriləcəyi müddət ərzində məxsusi olaraq tədbir üçün ayrılmış avtobuslarla yanaşı, ictimai nəqliyyat vasitələrindən də (marşrut avtobusları, metro və qatarlar) pulsuz istifadə edərək şəhər daxilində səfər edə bilərlər. Hava limanı və transfer xidmətləri ziyarətçilərin tələblərini qarşılamaq üçün 24 saat fəaliyyət göstərəcək". COP29-un əməkdaşı həmçinin Konfrans zonaları, Sammitin proqramı və əsas tarixlər barədə ətraflı məlumat verib. Beləliklə, COP29-un iki həftəlik gündəliyi və tematik günlər qrafiki belədir: 11 noyabr - COP29-un açılışı; 12 noyabr - İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti, COP29 Qala-tədbir; 13 noyabr - İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti; 14 noyabr - Maliyyə, İnvestisiya və Ticarət günü; 15 noyabr - Enerji / Sülh, Yardım və Bərpa günü; 16 noyabr - Elm, Texnologiya və İnnovasiya / Rəqəmsallaşma günü; 17 noyabr - İstirahət günü və Tematik Proqramlaşdırma günü; 18 noyabr - İnsan Kapitalı / Uşaqlar və Gənclər / Sağlamlıq / Təhsil günü; 19 noyabr - Qida, Kənd Təsərrüfatı və Su günü; 20 noyabr - Urbanizasiya / Nəqliyyat / Turizm günü; 21 noyabr - Təbiət və Biomüxtəliflik / Yerli xalqlar / Gender Bərabərliyi / Okeanlar və Sahil Zonaları günü; 22 noyabr - Yekun müzakirələr.



Tədbir akkreditasiyadan keçmiş yerli və xarici jurnalistlərin COP29 boyunca sahib olduğu bütün imtiyazların, həmçinin vəzifə və öhdəliklərin onlara çatdırılması ilə yekunlaşıb.

**Tacir SADIQOV,**
**"Respublika".**